

■ Qərib MEHDİ

## BUMERANQ

Ta qədimdən başlanan üstələmək üsulu indiyədək davam edir. Mübahisələr, mövqe ayrılıqları varsa, rəqiblər də var. Üstələmək üslubunda imkanlı haqsızların səlahiyyətləri geniş, imkansız haqlılarınkı dardır. Elə ona görə də əksər hallarda dar ağacları, edam kötükləri nəmli zindanlar, zəhərlənmələr imkansızların qismətinə düşür.

Yaxşı ki, keçmiş bütünlüklə bu günə köçməyib. Çağdaş dövrdə mahiyyət dəyişməsə də, icra qay-dalarında islahatlar, sivil gəzişmələr aparılıb. Bunların hamısı təqsirlənənə humanizm jestidir.

Bu yazıda ağır cəzaların tətbiqi məsələsini bir kənara qoyub yüngül sıxışdırmalarla rəqibi rametmə üsullarına toxunacağıq. O üsullardan biri də rəqiblər arasında "Salam variantı"nın işə salınmasıdır.

Allah, Allah!.. Gözlərimiz onu da gördü, qulaqlarımız onu da eşitdi: sülh mənası verən, barışa ça-ğıran müqəddəs salamdan da müharibə üçün istifadə edirlər.

Hansısa rayonlardan birinin icra başçısı mövcud qanun-qaydalara məhəl qoymur, səlahiyyət həd-dini aşır, düz yolu qoyub vəzifə atını əyri yollarla çapırdırmış. Onun əyri yollarının "repertuarı" zəngin imiş. Aydın məsələdir ki, cilovu çəkilməyən harınlıq əvvəlaxır müqavimət yaradır.

Ona qarşı da müqavimət yarandı, yazılı-şifahi etirazlar eşidildi. Başçı onu haqq yoluna dəvət edən-lərə qarşı özünəməxsus cəza növləri tətbiq edirdi. Bəzilərini ağır, bəzilərini isə yüngül "silahlarının" vasitəsilə susdururdu. Onun arsenalında elə yüngül "silah" vardı ki, insanı ağır "silahdan" da betər məhv edirdi. Elə götürək "Salam variantı"nı. Şər-böhtanla sıradan çıxarmaq mümkün olmayan rəqiblərini "Salam variantı" ilə təhqir edir, mənliyini alçaldır, vüqarını sındırır, heçlər cərgəsinə qatırdı. Belələrinin salamını almamaq, güc sahibinin xeyrinə əməliyyatı başa çat-dırırdı. Sınanmış üsul idi: özünə hörmət qoyan, bundan sonra özünə gələ bilməzdi.

Günlərin birində heç kimin gözləmədiyi bumeranq effekti baş verdi. Dözülməz vəziyyətlə barış-mayan şikayətçilərdən biri, müharibə veteranı ardıcıl olaraq onun barəsində yuxarılara şikayət məktubları göndərirdi. Başçı gördü ki, onun üzərinə "ağır texnika" yeritmək uğur gətirməyəcək. Manevr etməyə başladı. Qocanı ələalma cəhdləri, şirnikləndirmə təklifləri də boşa çıxdı. Ehtiyatda "Salam variantı" qalırdı. Başçı düşündü: "Onu daxildən sındıracağam, mənəviyyatını aşındıracağam, qoy bundan sonra özünə gələ bilməsin".

Başçı şikayətçini dinləmək üçün qəbuluna çağırtdırdı. Veteran da bu imkanı əldən verməyib rəhbərin görüşünə getdi. Fikirləşdi ki, qüsurları demək üçün yaxşı şərait yaranıb. Qoca qapını açıb içəri keçdi, başını aşağı dikib, özünü məşğul kimi göstərən rəhbərə ucadan salam verdi. Səlahiyyət sahibi sevimli "Salam variantı"nı işə saldı, şikayətçinin salamını almadı. Veteran bir az da gözlədi. Heç bir dəyişiklik baş vermədi. Veteran ucadan səsləndi:

- Paho, yanlış gəlmişəm ki!.. Mən kimə salam verirəm? Burada adam yoxuymuş ki...

Qoca gəldiyi kimi də geri qayıtdı. "Burada adam yoxuymuş ki...". Gözlənilməz zərbədən sarsılan başçının şikayətə gələni arxadan çağırmağa heyi qalmadı. Bumeranq hadisəsi baş vermişdi - atdığı silah qayıdıb özünə dəymişdi. Başqasını sındırmaq istəyənin özü sınıb içinə tökülmüşdü.

*11 yanvar 2015*

## İKİ YOL - İKİ YOLÇU

Yol da ikiydi, yolçu da. Nə özləri bir-birinə oxşayırdı, nə də yolları. Hansı səmtdən baxsan, hansı mənaya çəksən, yolçular ancaq öz yollarına bənzəyirdilər.

Birinci yolçu açdığı yola sevgilisi kimi vurulmuşdu. Bu yol ilkinliyindən ona məxsus idi. Dərədən, təpədən keçən, yağışda yuyunub günəşdə qurulanan yolda özünü andıran ağlının izi, ürəyinin istisi vardı.

İkinci yolçunun işi birinci yolçunun işindən, əməlindən, yaradıcılıq qabiliyyətindən çox-çox fərq-lənirdi. O, kiminsə "boşadığı" yola sahiblənmişdi. Xəcalət çəkmək əvəzinə, özünü bu yolda rahat hiss edirdi.

Onlar qələm şəkilli, "İstedad" markalı maşınlarında işə gedib, evə qayıdırdılar. Yolçular ayrılıqda özlərini daha doğru, daha üstün sanırdılar.

Heç biri iddiasından bir addım da olsun geri durmurdu. Hiss olunurdu ki, günlərin birində rəqib-yolçular birincilik uğrunda rəsmi yarışa çıxacaqlar.

Birinci yolçu, yolu kimi maşınını da özü icad etmişdi. Ona görə yolunu da, bu yolla hərəkət edən "İstedad" maşınını da xırda hissəsindən tutmuş böyük hissəsinə qədər əzbər bilirdi. İkinci yolçunun qabiliyyəti sükan saxlamaqdan o yana getmirdi.

Yarış labüdləşirdi. Qəribədir, doğrudanmı yarış olacaq? Doğrudanmı münsiflər heyəti tərəflərin qabiliyyətini qiymətləndirəcək, qalibi yüksək titulla mükafatlandıracaqdı? Məgər tərəflərin fərqli imkanları ədalətli nəticədən xəbər vermirdi?

Təşkilatçılar gözləntiləri gerçəkləşdirdilər. Maraq doğuran yarış başlandı. İki yol... İki yolçu... İki "İstedad" maşını... Tərəflər Start nöqtəsindən maşınlarına oturub eyni istiqamətə - Finişə doğru yol aldılar. Birinci sürücü an içindəcə gözdən itib İkinci sürücünü xeyli arxada qoydu. Aralarında olan məsafə fərqi getdikcə artırdı.

Finişə yaxınlaşan məqamda yanaşı uzanan yolların ortasında iki maneə - iki iri daş peyda olmuşdu. Bu qaya parçaları kim tərəfindən qoyulmuşdu? Bilinmədi. Bəlkə, bu, münsiflər heyətinin qurğusu, ya taleyin sınağı idi? Yenə bilinmədi.

İstər-istəməz irəlidə olan Birinci "İstedad"çı dirənməli oldu. Maşını saxlayıb maneəni aradan qaldırmaq üçün yollar aradı. Gah maşının önü, gah da arxası ilə daşı tərpətmək istədi. Nəticə acınacaqlı oldu. İdarə etdiyi "İstedad" maşını ciddi zədələndi. O, maşının səsliyini basıb ətrafdan kömək dilədi. Heç kim onun hayına çatmadı. Axırda qollarını çirmələyib qaya parçasına güc tətbiq etmək qərarına gəldi. Qantərə batdı. Havayı yerə özünü əldən saldı. Maşını kimi özü də zədələnib güc tətbiq etmək fikrindən geri durdu. Əsl "İstedad"çıda yetərli fiziki güc haradan ola bilərdi? Yolunu kəsən daş, maneə törətmək niyyətində qərarlı idi. Onu necə rəhmə gətirmək olardı?

Birdən Birinci yarışçının İlahidən verilən təbi coşdu, ilhama gəlib bir neçə şeir dedi. Sən demə, daşın da ürəyi varmış. Söylənən şeirin təsirindən məst olan, məmnun qalan daş bir az yana çəkildi. Bu güzəşt "İstedad"ın ötüb keçməsi üçün yetərli deyildi. Bu dəfə yarışçı natiqlik qabiliyyətini işə saldı. Azacıq uğur onu ruhlandırmışdı. Onun təsirli monoloqu daşı insafa gətirdi. Maneə bir az da yana çəkildi. Birinci yarışçı sözünün təsirilə insafa gələn, güzəştə gedən daşın üz-gözündən öpüb "İstedad"la yoluna davam etməyə başladı. Zədələr işini görmüşdü. Nə maşın əvvəlki maşın, nə yolçu əvvəlki yolçu idi. Bəli, əvvəlki sürətdən əsər-əlamət qalmamışdı. Bu gedişlə İkinci sürücü onu haqlayıb keçə bilərdi.

Elə bu zaman arxada qalan İkinci sürücü də gəlib maneə yerinə çatdı. Yoluna qoyulan qaya parçası əsəblərini yerindən oynatdı. Nə maşınının, nə də özünün oyunçunu sınağa çəkən daşa gücü çatan deyildi. İlhamının "düyməsi"ni basdı. Süni şeirlərin, nitqlərin heç bir köməyi olmadı. Daş bir şey eşitmirmiş kimi daşlığında qalırdı. Onun gücü bir şeyə çatdı - maşının səsliyinə. Qeyzlə əlini səsliyə basıb haray təpdi. Dərhal yarğanlarda, ağacların arxasında gizlənən adamlar onun harayına yetdilər. Köməkləşib, daşı yoldan çəkib dərəyə dığırladılar. Sonra xilaskarlar darda qalan ikinci yarışçının telini daraqladılar, üst-başına ətir püskürtdülər və dedilər: "Narahat olmayın, qurama maneəni göstəriş əsasında biz yaratmışdıq, biz də qaldırdıq. Di yaxşı yol! Qələbə sizi gözləyir!". İkinci yarışçının nə maşını zədələndi, nə də özü. O, köməkçilərinə minnətdarlıq edib əvvəlki orta sürətlə yoluna düzəldi.

Finiş xəttində çoxlu adam toplaşmışdı. Qalibin kimliyi hamını maraqlandırırdı. Budur, birinci sürücü yavaş sürətlə də olsa, qələbə xəttinə yaxınlaşırdı. Tamaşaçılar hay-küy salır, əl çalır, onu qələbəyə səsləyirdilər. İkinci yarışçı isə görünmürdü. Bu gözəgörünməzlik imkanlı himayəçiləri üzürdü.

Finiş xəttinə on metr qalar-qalmaz Birinci yarışçının "İstedad"ı dayandı. Yarışçı nə qədər cəhd etsə də, maşının sönmüş mühərrikini işə sala bilmədi. Əlacsız qalıb özü yerə düşdü. Maneə daşı ilə güləşməkdən onda hal qalmamışdı. Ağır addımlarla, səndələyə-səndələyə Finiş xəttinə doğru yeridi. Beş-altı addımdan sonra gücü tamam tükəndi. Yenə cəhdi alınmadı. Ləngərlədi, üzü üstə yola sərildi. Başı finiş xəttinin - qələbə xəttinin düz üstünə düşdü. Gözlənilməzlik hamını çaşdırdı. Bununla belə, azarkeşlər bu halı qələbə nişanı kimi alqışlamağa başladılar. Bəs münsiflər heyəti? Əsas söz onlarındır. Görək onlar nə deyəcək, hansı qərara gələcəklər?

Fikir dartışması sona çatmamış, İkinci sürücü əmin-arxayın, rahat halda özünü Finiş xəttinə çat-dırdı. Ona da çəpik çalanlar tapıldı. İkinci "İstedad"çı məmnun halda Birinci "İstedad"çının təəssüfləndirici sonluğunu ləzzətlə seyr edir, təbrikçilərinin gül dəstələrini qucağına yığırdı. Bunlar ona az görünürdü. Onun boynu münsiflər heyətinin çələnginin həsrəti ilə alışıb-yanırdı.

Ötəri məsləhətləşmədən sonra İkinci "İstedad"çı münsiflər heyəti tərəfindən qalib elan olundu. Qələbə çələngi onun peysərinə keçirildi. Baş verənləri ancaq baxışları ilə seyr edən Birinci "İste-dad"çının başı hələ də Finiş xəttinin üzərində idi. Ayaqları isə bu xətdən xeyli aralıydı.

Nə etməli?.. Belə "ədalətli" yarışlarda başın qazandığını qələbə kimi qeydə almırlar.

*31 yanvar 2015*

